

Valeh BAHADUROĞLU

# Ömrümdən anlar

**Son illər yazdığım şeirlərimi toplayıb kitab halında çap etdirmək niyyətindəydim. Kitabın üz qabığı üçün seçdiyim şəklə baxdım. Bu şəkil həm də mənim kitaba verəcəyim adın seçiminə yardımçı olmalıydı.**

Kimsə əl telefonunda mənim ömrümün ən gözəl anlarından birini əbədiləşdirmişdi. Elə yazdığım şeirlər də ömrümün müxtəlif anları olduğundan kitabımı "Ömrümdən anlar" adlandırmaq qərarına gəldim.

Aradan bir neçə gün keçmişdi. Şəxsi kitabxanamdakı kitablardan birini götürüb baxmaq istədim. Kitabı götürdüm və üz qabığına baxdım. FİKRƏT QOCA. "Ömrümdən anlar". Gözəl şair, ömrünün

*Gözümün işığına*
*hər kirpik bir yük olur.*
*Bəzən bir ömürdən də,*
*bir gecə böyük olur.*

kimi misralar bizim gəncliyimizin danışan dili olub. Nə isə, oturub "Ömrümdən anlar"ı şeirbəşeir oxudum. Onsuz da indiyədək ucalığına, Qocalığına həmişə fəxarət hissiylə baxdığım bir insanın-dağın zirvəsinin qarının sərinliyinə, sinəsindəki oda, atəşə tapındıqca yaşamaq, yazıb-yaratmaq keçib adamın könlündən. Bu dəfə də eləcə.

Sonra da "Ürəklə" şeirini oxuyursan.

*Narazı deyiləm ömürdən-gündən,*
*Hamını dost gördüm bu yer üzündə.*
*Kişinin düşməni əzəl günündən*
*Ya evində olur, ya da özündə.*

*İçimi yandırır özümün ahım,*
*Yanıb kül oluram mən gülə-gülə.*

*Şairin dünyada kimi var axı,*
*Bir ürəyi olur, o da ki belə.*

İstər-istəməz əlini ürəyinin üstünə qoyursan. Sənə ömrü boyu



deməк olar ki, böyük hissəsini ədəbiyyatımıza, milli-mənəvi dəyərlərimizin qorunub-saxlanmasına həsr edən, həyatın verdiyi əzabları da, sevincləri də Allah payı kimi qəbul edən, onları böyük sevgi ilə yaşayan müdrik bir qoca, xalq şairi Fikrət Qoca.

Oturub arxayınca kitabı açdım. 2000-ci ildə "Gənclik" nəşriyyatı tərəfindən nəşr olunan "Ömrümdən anlar" kitabını böyük şair həmin ilin aprelin 25-də avtoqrafla mənə bağışlayıb. "Valeh, bu kitabda ömrümün bir qismi toplanıb. Oxu, daha yaxından tanış ol".

Yeri gəlmişkən deyim ki, Fikrət müəllim, biz sizinlə çoxdan, lap çoxdan, təxminən 40 ildən artıqdır ki, tanışıq. Sizin şeirlərinizi, ötən əsrin 80-ci illərində bir ara yazdığınız publisist yazılarınızı oxuya-oxuya sevmişik sizi.

Kitabda toplanan şeirlər 1960-1966 illər arasında yazılmış şeirlərlə başlayır. Misraların sehrindən ayrılmaq çətin olur adama.

*Qatarı yola salmaq,*
*Səkidə təkcə qalmaq.*
*Ötən ömür-gün kimi,*
*Gedənlərin dalınca*
*Gözlərin qaralınca*
*Baxmaq yaman ağırdır...*
*Gözüm yaşarmasa da*
*Ürəyimi ağrıdır.*

Ağrı adlanan bu şeiri (1966) oxuduqca hiss edirsən ki, elə ötən ömür, ötən gün elə səndən ayrılanlar, səndən gedənlərdir. Elə ömür gələnlərin gəlişinə sevinmək, gedənlərin gedişinə kədərlənməkdir. Gözlərin qaralınca arxalarınca baxmaqdır. Nə vaxtsa qayıdacaqlarına inanmaqdır.



yoldaşlıq edən, səni qələbələrə, mübarizələrə səsləyən dostun-ürəyin səni nə vaxtsa "arxadan vuracağına", sənə namərdlik edib yarı yolda qoyacağına sövq-təbii inanırsan.

*...Mənzil yaxın, vaxtım azdı.*
*Dörd günümdən biri yazdı.*
*Ürəyim bir sözlü sazdı,*
*Barı kökdən düşmə könül.*

Böyük şairin "Ömrümdən anlar"ı haqqında öz təəssüratlarımı oxucularla bölüşmək qərarına gəldim.

"Fikrət Qoca öz poetik ömrünün yoxuşunu çoxdan qalxıb. Əgər belə demək mümkünsə, bundan sonra heç nə yazmasa da, elə bu vaxtacan yazdıqları kifayətdir. Ancaq indi XX əsrdir və görünür bu əsr başa çatınca çox hadisələrin, çox inqilabların şahidinə çevriləcəyik. Əsrə, zamana, dünyaya çox suallarımız olacaq. Və həssas bir şair kimi Fikrət Qoca da əsrin, zamanın hər hansı bir hadisəsinə biganə qalmayacaq. Çünki, o təbiətli şairlər üçün dünyada rahatlıq deyilən məfhum yoxdur. Olsaydı, Fikrət Qoca deyilən bir şair olmazdı". "Ürəyimi sərdim günəşə", Vaqif Yusifli. 1997. səh 61.

Böyük şairin bir dünyası var - şair dünyası. Bir ömür yaşayır - şair ömrü. Həmişə bir adamdan - bir ustaddan söz açır - RƏSUL RZADAN. "Rəsul Rza sözün əsl mənasında mənim ədəbi atam olub. Bəlkə də atamın dözmədiklərinə o dözürdü". Bəli, F.Qoca "şıltaqlığına" ancaq yüz ağac boyundan görünən adam dözə bilərdi.

*Bu dünyanın arabir*
*Namərdləri olsa da.*
*Bu qədər tanıdığın*
*Yaxşıları sal yada.*

Bu kitabda F.Qocanın şair ömrünün müxtəlif anlarının bir qismini izlədim. Ədəbiyyatın çətin yollarında inamlı addımlarının şahidi oldum. Sənətdə öz yolu, öz dəsti-xətti olan bir şairlə üz-üzə durdum. Bir ustaddan dərs alanın neçələrinə ustadlıq etdiyini anladım.